# Naxçıvan Muxtar Respublikasının iqtisadi potensialı

## Coğrafi mövqeyi, ərazisi və əhalisi

**Ərazisi:** 5,5 min km2

**Əhalisi:** 465,3 min nəfər (1 dekabr 2022-ci il tarixinə)

**Sərhədləri:** Türkiyə ilə 11 km, İranla 204 km, Ermənistanla 246 km.

**İnzibati strukturu:** 7 inzibati rayon, 6 şəhər, 9 qəsəbə, 203 kənd.

## Təbii sərvətləri

• Müxtəlif faydalı qazıntı yataqları və təzahürləri ilə zəngindir. Dərindən tədqiq olunmasına ehtiyac olan 100-dən çox filiz və 80-dən çox qeyri-filiz yataq təzahürləri mövcuddur. (Mis, molibden, qurğuşun, qızıl, gümüş və s.).

• 250-dən çox mineral su mövcuddur ki, bu da Azərbayacanın mineral sular ehtiyatının 60%-ni təşkil edir.

• Təbii duz yataqları ilə də çox zəngindir. Naxçıvan-Süst duz yatağında 90 milyon ton duz ehtiyatı vardır. Əlavə NMR-da Nehrəm və ŞəkərabadQoşadizə duz yataqları mövcuddur. Bu yataqlarda 1,2 milyard ton duz olduğu proqnozlaşdırılır. Lakin yataqlar dərində yerləşdiyi üçün hələ ki istifadə olunmur. Ölkə üzrə daşduz yataqları yalnız NMR-da mövcuddur. Müqayisə üçün Masazır gölündə 1,7 milyon ton duz ehtiyatı var.

• NMR ərazisində elm və xalq təbabətində, yüngül və yeyinti sənayesində işlədilən 1000-dən çox müxtəlif bitki növü müəyyənləşdirilmişdir. Onlardan 150 növü dövlət qeydiyyatına alınmış rəsmi dərman bitkiləridir.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı və sosial həyatı özünəməxsusluğu ilə fərqlənir. Blokada şəraitində yaşamağa məhkum olunmuş muxtar respublika mövcud çətinliklərə baxmayaraq Azərbaycanda həyata keçirilən genişmiqyaslı quruculuq prosesində fəal iştirak edir. Azərbaycan Respubliksaının iqtisadi-coğrafi rayonlaşdırılmasında Naxçıvan Muxtar Respublikasının ərazisi bütövlükdə ölkədaxili iqtisadi rayonlardan biri kimi qeyd olunmuşdur. Lakin o, özünün çoxsahəli strukturu ilə fərqlənir. Bu, muxtar respublikanın Azərbaycan Respublikasının əsas ərazisindən təcrid edilmiş coğrafi məkanda yerləşməsi və bununla əlaqədar burada yerli tələbatı müvafiq istehsal sahələri yaratmaq hesabına təmin etmək zərurəti ilə izah olunur.

Naxçıvan Muxtar Respublikası inkişafda olan çoxsahəli sənaye və aqrarsənaye respublikasıdır. Sənayedə yerli kənd təsərrüfatı məhsullarının emalı və faydalı qazıntı hasilatı xüsusi yer tutur. Elektronika, metal emalı, tikinti materialları və yüngül sənayesi var. Kənd təsərrüfatı, əsasən taxılçılıq, heyvandarlıq, tərəvəzçilik və bağçılıq sahəsində ixtisaslaşmışdır. Muxtar respublikada iqtisadi islahatlar ardıcıl həyata keçirilmiş, torpaq islahatı başa çatdırılmış, azad sahibkarlığın, xüsusi mülkiyyətin və kiçik biznesin inkişafı üçün geniş imkanlar yaradılmışdır.

Muxtar respublikada davamlı inkişafın təmin edilməsi, sahibkarlıq fəaliyyətinə meylin stimullaşdırılması və bu istiqamətdə bütün cəhdlərin hərtərəfli dəstəklənməsi sahəsində mühüm tədbirlər həyata keçirilmiş, bu sahədə məqsədli proqramlar hazırlanmışdır. Muxtar respublikanın sosial-iqtisadi inkişafının sürətləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 5 iyun 2023-cü il tarixli sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosialiqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir.

Muxtar respublikanın müasir yol xəritəsi sayılan bu sənəddə iqtisadiyyatın inkişafı, o cümlədən əlverişli biznes mühitinin yaradılması, ticarətin, ixracyönlü sənayenin, turizmin və infrasturuktur təminatının, sosial sektorun, insan kapitalının inkişafı, kənd təsərrüfatı məhsulları istehsalının və emalının artırılması, elektrik enerjisi istehsalının artırılması, institusional inkişaf, ətraf mühitin mühafizəsinin gücləndirilməsi kimi 11 prioritet istiqamət üzrə fəaliyyətlərin dəstəklənməsini nəzərdə tutmuşdur.

Naxçıvanda Azad İqtisadi Zonasının yaradılması muxtar respublikanın inkişaf konsepsiyasının ana maddəsidir. Regionun xarici dövlətlərlə sərhəddə yerləşməsi nəzərə alınmaqla bölgədə vergi və gömrük güzəştləri müəyyən ediləcək və rəqabətqabiliyyətli ticarət qovşağı yaradılacaqdır.

Həmçinin proqram çərçivəsində muxtar respublikada hüquqi və fiziki şəxslərə vergi və digər güzəştlərin tətbiq edilməsi ilə özəl sektorun inkişafına nail olunacaq. Bundan başqa, sosial sığorta ödənişlərinin tam və ya qismən dövlət tərəfindən subsidiyalaşdırılması həyata keçiriləcəkdir.

Proqramda Sənaye Parkının yaradılması və sənaye məhəlləsinin fəaliyyətə başlamasının təmin edilməsi nəzərdə tutulmuşdur. Sənaye parkında istehsal olunan sənaye məhsullarının ixracı stimullaşdırılacaq, ixrac potensialının artırılmasına töhfə verən rəqabətqabiliyyətli sənaye sahələrinə dövlət dəstəyi və investisiyalar cəlb olunacaq, innovasiyalar, habelə dövlət-özəl tərəfdaşlığı ilə bu sahədə resurs və xidmət təminatı gücləndiriləcəkdir.

Muxtar respublikanın iqtisadiyyatında şəffaflaşmanın artması, “kölgə iqtisadiyyatı”nın miqyasının azaldılması, biznes fəaliyyətinin leqallaşdırılması vergi daxilolmalarının dinamik artımı ilə nəticələnmişdir.

Son 20 il ərzində sənaye sahəsində reallaşdırılan islahatların nəticəsində sənaye müəssisələrinin sayı 400-ü ötmüşdür. Sənaye məhsullarının sayı da artmışdır. Əgər 1990-cı illərdə muxtar respublikada istehsal olunan sənaye məhsullarının sayı üzrə maksimum göstərici 23-ə bərabər idisə, son 20 il ərzində bu göstərici 300-dən çoxdur. Sahibkarlıq fəaliyyətinin stimullaşdırılması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində ümumi daxili məhsul istehsalında özəl bölmənin payı 87 faizi ötmüşdür.

Muxtar respublikada pozitiv meyillərlə səciyyələnən bu sosial-iqtisadi fəallığın təməlində iqtisadi inkişafın sosial yönümlü olması, hər bir vətəndaşın iqtisadi və sosial inkişafda iştirakından asılı olaraq maddi rifahının artırılması, iqtisadiyyatın dövlət tənzimləmə mexanizmlərinin liberallaşdırılması, iqtisadi tərəqqinin əsas meyarlarından olan azad rəqabət, sahibkarlıq və investisiya mühitinin daha da yaxşılaşdırılması, əsassız məhdudiyyətlərin aradan götürülməsi, investisiyaların və sahibkarlığın inkişafının təşviqi üsullarından geniş istifadə olunması və muxtar respublikanın iqtisadi təhlükəsizliyinin təminatı üçün aparılmış kompleks işlər dayanır.